BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Anakliya layihəsi ətrafında yeni dinamikalar

Nəsibə Mirzəyeva

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

APREL 2026

## Anakliya layihəsi ətrafında yeni dinamikalar

Cənubi Qafqazda cərəyan edən proseslər, o cümlədən son zamanlarda Gürcüstanla ABŞ arasında münasibətlərin nizamlanması istiqamətində addımlar, həmçinin ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri bürosunun nümayəndəsi **Peter Andreoli**nin Gürcüstan iqtisadiyyat naziri **Mariam Kvrivişvili** ilə görüşü və bu çərçivədə Anakliya limanı ilə maraqlanması bu layihəni təkrar gündəmə gətirib. **Peter Andreoli** ilə görüşdə tərəflər ölkələr arasında iqtisadi əməkdaşlığın prioritetlərini müzakirə ediblər. Xüsusilə iri infrastruktur layihələrinə Amerika investisiyalarının cəlb edilməsi imkanlarına və ticarət əlaqələrinin genişləndirilməsinə diqqət yetirilib. **Mariam Kvrivişvili** Amerika tərəfinə Anakliya dərin su limanının inkişaf planları və mövcud irəliləyiş barədə məlumat verib.[1] Həmçinin məlum olub ki, iqtisadiyyat nazirinin müavini **Tamar İoseliani** də **Peter Andreoli**yə Anakliya dərin su limanı layihəsinin gedişi barədə danışıb. Amerika nümayəndə heyəti yerində tikinti və mobilizasiya işləri ilə tanış olub.[2]

ABŞ üçün Anakliya layihəsi özlüyündə iqtisadi təşəbbüsdən daha çox, strateji və təhlükəsizlik prizmasından əhəmiyyət kəsb edir. Bu çərçivədə əsas diqqət limanın inkişafından çox, onun hansı aktorların təsir dairəsinə düşə biləcəyi məsələsinə yönəlir. Nəticə etibarilə, Anakliya limanı bu diskursda Gürcüstanın iqtisadi inkişaf aləti kimi deyil, daha çox geosiyasi maraqların toqquşduğu və böyük güclərin rəqabətini əks etdirən strateji obyekt kimi dəyərləndirilir.[3]

### Anakliya layihəsinin qısa xronologiyası[4]

Anakliya limanının tikintisinə 24 dekabr 2017-ci ildə, o zamankı baş nazir **Giorgi Kvirikaşvili** və “Anakliya İnkişaf Konsorsiumu”nun təsisçisi **Mamuka Xazaradze** tərəfindən başlanılıb. **Giorgi Qaxaria**nın baş nazir olduğu dövrdə, 9 yanvar 2020-ci ildə öhdəliklərin yerinə yetirilməməsi səbəbindən Anakliya limanını tikməli olan “Anakliya İnkişaf Konsorsiumu” ilə müqavilə ləğv edilib. Bu konsorsium **Mamuka Xazaradze** tərəfindən yaradılıb və onun tərkibinə ABŞ-ın Conti International və Gürcüstanın TBC Holding şirkətləri daxil olub. Konsorsium və onun hollandiyalı investoru **Bob Meyer** Gürcüstana qarşı arbitraj iddiası qaldırıblar. Lakin hər iki arbitraj işi iddiaçılar tərəfindən uduzulub.

---

[1] სამინისტრო: მინისტრმა ამერიკულ მხარეს ანაკლიის ღრმაწყლოვანი პორტის განვითარების გეგმები გააცნო 26.03.2026 https://publika.ge/saministro-ministrma-amerikul-mkhares-anakliis-ghrmawylovani-portis-ganvitarebis-gegmebi-gaacno/

[2] სახელმწიფო დეპარტამენტის წარმომადგენელმა ანაკლიის ნავსადგურის სამშენებლო სამუშაოები დაათვალიერა 26.03.2026 https://publika.ge/sakhelmwifo-departamentis-warmomadgenelma-anakliis-navsadguris-samsheneblo-samushaoebi-daatvaliera/

[3] ამერიკასთან ურთიერთობებში „რაღაც“ ხდება - იქნება თუ არა პოზიტიური გარღვევა 07.04.2026. https://www.resonancedaily.com/index.php?id_rub=2&id_artc=248866

[4] **Daha ətraflı baxın**: Mirzayeva, N. (2025). Anaklia Project: Strategic Importance and Challenges. Journal of Balkan and Black Sea Studies, 14, June 2025, 51-76. https://dergipark.org.tr/en/pub/balkar/article/1661003

30 iyul 2025-ci il tarixli qərara əsasən, Vaşinqton Beynəlxalq Arbitraj Mərkəzi (ICSID) **Bob Meyer**in 64 milyon dollar kompensasiya tələbi ilə qaldırdığı iddianı təmin etməyib. Əksinə, **Bob Meyer** dövlətə hüquqi xərclər və arbitraj xidmətləri üçün 6,5 milyon dollar ödəməyə məcbur edilib.

Hökumət layihə üçün yeni özəl tərəfdaş seçmək məqsədilə hazırlıq işlərinə 2022-ci ilin ikinci yarısında başlayıb. 29 may 2024-cü ildə məlum olub ki, Anakliya dərin su limanının tikintisi üçün özəl investor kimi Çin konsorsiumu seçilib.[5] Bu barədə **Levan Davitaşvili** mətbuat konfransında bildirib. Onun sözlərinə görə, limanın 51%-i Gürcüstan hökumətinə məxsus olacaq, 49%-i isə Çin-Sinqapur holdinqinə veriləcək.[6] Lakin sonradan məlum olub ki, seçilmiş holdinq korrupsiya qalmaqalları ilə tanınır və ABŞ tərəfindən müəyyən məhdudiyyətlərə məruz qalıb. Artıq təxminən 2 il keçməsinə baxmayaraq, hökumətin üstün namizəd kimi seçdiyi Çin-Sinqapur konsorsiumu ilə hələ də yekun müqavilə imzalanmayıb.

### Anakliyanın Gürcüstan üçün əhəmiyyəti

Anakliya dərin su limanı layihəsi Gürcüstan üçün həm geosiyasi, həm iqtisadi baxımdan kritik infrastruktur elementi kimi çıxış edir. Bu səbəbdən gürcü cəmiyyətində bu layihənin regionda güc balansına təsir göstərə biləcək potensialda olduğuna inanılır. Hesab edilir ki, limanın ətrafında gedən siyasi müzakirələr xüsusilə xarici aktorların – Qərbin, Çinin və digər güclərin fəal iştirakı birbaşa Gürcüstanın xarici iqtisadi və siyasi istiqamətinin formalaşmasına təsir göstərə bilər. Bu mənada, Anakliya layihəsi yalnız iqtisadi təşəbbüs deyil, həm də geniş geosiyasi rəqabət kontekstində qiymətləndirilməlidir.

Layihənin digər mühüm tərəfi onun beynəlxalq nəqliyyat və logistika sistemində oynaya biləcəyi rolla bağlıdır. Anakliya limanı Gürcüstan üzərindən keçən nəqliyyat dəhlizini gücləndirərək, onu Rusiya üzərindən keçən marşrutlara alternativə çevirə bilər. Bu güclənmə Avropa, Mərkəzi Asiya və Çin arasında yük daşımalarında Gürcüstanın əhəmiyyətini artırmaqla yanaşı, regionda tranzit axınlarının yenidən formalaşmasına səbəb ola bilər. Eyni zamanda bu liman xüsusilə Mərkəzi Asiya ölkələri üçün Rusiya nəqliyyat insfrastrukturundan asılılığı azaldan daha sərfəli və diversifikasiya olunmuş ixrac marşrutu təqdim oluna bilər. Layihənin həyata keçirilməsi iri həcmli xarici investisiyaların cəlb olunmasına, yeni texnologiyaların ölkəyə gətirilməsinə və yüksək ixtisaslı iş yerlərinin yaradılmasına şərait yaradar. Eyni zamanda, bu cür infrastruktur layihəsi Gürcüstanın Avropa ilə iqtisadi inteqrasiyasını

[5] პრემიერი - ანაკლიის პორტის საზღვაო ინფრასტრუქტურის სამშენებლო სამუშაოები ძალიან მალე დაიწყება 03.06.2024 https://www.interpressnews.ge/ka/article/801949-premieri-anakliis-portis-sazgvao-inprastrukturis-samsheneblo-samushaoebi-zalian-male-daicqeba/

[6] რომელი ქვეყნიდან არიან ინვესტორები, რომლებიც ანაკლიის პორტის მშენებლობის საკითხზე გამოცხადებული კონკურსის მეორე ეტაპზე გადავიდნენ - ეკონომიკის მინისტრი დეპუტატების კითხვებს პასუხობს https://rustavi2.ge/ka/news/265132

dərinləşdirə, ölkənin etibarlı tərəfdaş kimi imicini gücləndirə və Qərb bazarlarına çıxış imkanlarını genişləndirə bilər.

Nəhayət, Anakliya limanı regional rəqabət kontekstində də xüsusi əhəmiyyət kəsb edir. Limanın fəaliyyətə başlaması regionda logistika və ticarət axınlarının istiqamətini dəyişə, Rusiya dominantlığını zəiflədə və Gürcüstanı daha müstəqil və strateji tranzit mərkəzinə çevirə bilərdi.[7]

## Hökumətin layihənin vəziyyəti ilə bağlı mövqeyi

Gürcüstanın Baş naziri **İrakli Kobaxidze** bildirib ki, hökumət Anakliya dərin su limanı ilə bağlı müqavilələrə yenidən baxıb və nəticədə xərclər 25% azaldılaraq 52,5 milyon dollar qənaət edilib.

Dəyişikliklər liman akvatoriyasının dərinləşdirilməsi və dalğaqıranın tikintisi ilə bağlıdır. **Kobaxidze**nin sözlərinə görə, Anakliyada tikinti işləri yaxın zamanda xeyli aşağı xərclərlə bərpa olunacaq. [8]

## Layihə ilə bağlı müxalifətin mövqeyi

“Güclü Gürcüstan-Lelo” partiyasının liderlərindən **İrakli Kupradze** brifinqdə bildirib ki, Anakliya limanı ABŞ prezidenti Donald Trampın şərəfinə adlandırılmalıdır. O hesab edir ki, Anakliya dərin dəniz limanı layihəsi Bakı-Tbilisi-Ceyhan neft kəməri qədər irimiqyaslı bir layihə olub ABŞ və Tramp administrasiyasının elan etdiyi strateji prioritetlərə cavab verir. Məhz Anakliya limanı layihəsi Qara dənizdə təhlükəsizliyin təminatı, iqtisadiyyatın inkişafı və enerji mənbələrinin şaxələndirilməsində dönüş nöqtəsinə çevrilə bilər: *“Gürcüstanda sülhün saxlanılması üçün Anakliya layihəsinə milli strateji əhəmiyyətli status verilməlidir. Anakliya sadəcə liman deyil, bu, Gürcüstanın milli geosiyasi seçimidir*”.

Siyasətçi Anakliyanı Gürcüstanın hər şeydən öndə dayanan marağı kimi dəyərləndirib. Onun fikrincə, layihədə aparıcı rol Amerika və Transatlantik maliyyə institutlarına verilməlidir. Layihədə Rusiyanın və ya Çinin dövlət maraqları ilə əlaqəli strukturlar üstünlük təşkil etməməlidir: *“Ermənistan-Azərbaycan razılaşmasından sonra Qafqazda “Tramp Yolu” adlanan çox vacib bir tranzit yolu yarandı. Bu marşrut Gürcüstandan yan keçməməlidir. Buna yalnız “Tramp Yolu”nun məntiqi davamı olacaq Anakliya limanının tikintisi ilə nail olmaq olar*”.[9]

[7] ანაკლია კვლავ „გაცოცხლდა“: ხელიდან გაშვებული თუ ახალი შანსი? 05.03.2021 https://accentnews.ge/ka/article/33653-anaklia-kvlav-gacocxlda-xelidan-gashvebuli-tu-ax
[8] კობახიძე ანაკლიის პორტზე: უახლოეს დღეებში აქტიურად განახლდება სამშენებლო პროცესი. 08.04.2026 https://publika.ge/kobakhidze-anakliis-portze-uakhloes-dgheebshiaqtiurad-ganakhldeba-samsheneblo-procesi/
[9] „ლელო“ ითხოვს, რომ ანაკლიის პორტს ტრამპის სახელი დაერქვას 07.04.2026 https://netgazeti.ge/news/803623/ ; ირაკლი კუპრაძე➡️პოლიტიკური ამბები 06.04.2026. https://www.youtube.com/watch?v=9Hli4TcxRPw

Keçmiş müdafiə naziri və “Vətəndaş İdeyası” QHT-nin rəhbəri **Tina Xidaşeli**nin fikrincə, ilkin mərhələdə tarixi fürsət artıq əldən verilib, əgər Anakliya limanı fəaliyyət göstərsəydi, Cənubi Qafqazda fəallaşan **D.Tramp** Gürcüstandan yan keçə bilməzdi. Onun fikrincə, “Gürcü Arzusu” hakimiyyəti limanı strateji və geosiyasi layihə kimi deyil, daha çox siyasi və diplomatik bazarlıq aləti kimi görür. Yəni, Anakliya layihəsi real inkişaf planından çox, tərəfdaşlarla münasibətlərdə istifadə olunan bir “kart” kimi saxlanılır. İndiki vəziyyətdə isə, layihə hələ də qeyri-müəyyən qalır və investisiyanın kim tərəfindən, nə vaxt ediləcəyi bilinmir.

Müsahibədə qeyd olunur ki, Çin tərəfi müəyyən maraq göstərsə də, yüksək risklər və qeyri-sabitlik səbəbindən konkret addımlar atmır. Eyni zamanda, ABŞ tərəfindən maraq siqnalları var, lakin bu, hələ konkret nəticələrə çevrilməyib. **Xidaşeli** hesab edir ki, əgər ABŞ real investisiya qərarı versə, bu layihə Gürcüstan üçün Bakı-Tbilisi-Ceyhan kəməri qədər əhəmiyyətli ola bilər. Onun fikrincə, “Orta Dəhliz” layihəsinin əhəmiyyəti Ukrayna müharibəsindən sonra artsa da, Gürcüstan bu fürsətdən tam istifadə edə bilməyib.[10]

## Gürcüstan mediasında Azərbaycanın Anakliyaya marağının ifadəsi

Azərbaycanın Anakliya dərin su limanına marağı onun regional tranzit, enerji və logistika strategiyasının məntiqi davamı kimi çıxış edir və Cənubi Qafqazda formalaşan Orta Dəhliz çərçivəsində xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan artıq Gürcüstan üzərindən keçən enerji və nəqliyyat infrastrukturlarında mühüm rol oynadığı üçün Anakliya limanı bu mövcud sistemin dəniz komponentini gücləndirən strateji tamamlayıcı element kimi qiymətləndirilir. Bu kontekstdə limanda potensial iştirak Azərbaycanın Qara dənizə çıxış imkanlarını genişləndirərək, onun Avropa bazarlarına girişini daha çevik və diversifikasiya olunmuş şəkildə təmin edə, eyni zamanda Mərkəzi Asiyadan gələn yük axınlarının idarə olunmasında rolunu artıraraq regional tranzit mərkəzi kimi mövqeyini möhkəmləndirə bilər.

Mediada vurğulandığı kimi, Azərbaycan üçün Anakliya layihəsində iştirak tam nəzarət deyil, payçılıq və strateji tərəfdaşlıq modeli ilə ifadə olunur ki, bu da SOCAR və digər dövlət strukturları vasitəsilə Gürcüstanda artıq formalaşmış iqtisadi mövcudluğun genişləndirilməsi ilə uyğunluq təşkil edir. Bununla belə, bu maraq yalnız iqtisadi motivlərlə məhdudlaşmır, həm də Azərbaycanın regional təsirini artırmaq, enerji və logistika zəncirində mövqeyini gücləndirmək və Orta Dəhliz üzərində strateji üstünlüklər əldə etmək məqsədini daşıyan geoiqtisadi siyasətin tərkib hissəsi kimi çıxış edir.[11]

---

[10] „ოცნებას“ ანაკლიის კარტი აქვს შემონახული გასათამაშებლად – ინტერვიუ 27.03.2026 https://batumelebi.netgazeti.ge/slideshow/610532/

[11] ლუკა პერტაია. ბაქო ანაკლიის პორტით ინტერესდება: აზერბაიჯანი და საქართველო „შუა დერეფანში“ 10.10.2023

Bakı uzun illərdir ki, Xəzər hövzəsindən Avropaya uzanan enerji və logistika dəhlizlərinin əsas təşəbbüskarlarından biri kimi çıxış edir və bu çərçivədə Gürcüstan üzərindən keçən marşrutlar onun strateji planlaşdırmasının mərkəzi elementini təşkil edir. Orta Dəhlizin inkişafı və Çin-Avropa ticarət marşrutlarında rəqabətin artdığı bir dövrdə liman Bakıya əlavə üstünlüklər qazandırmaq potensialına malikdir. Eyni zamanda, limanda mümkün iştirak Azərbaycanın Gürcüstanda iqtisadi mövcudluğunu dərinləşdirərək onun regionda "logistika qovşağı" rolunu gücləndirə bilər.

Bununla belə, belə bir genişlənmə strategiyası balanslı şəkildə həyata keçirilməlidir, çünki infrastruktur üzərində təsirin həddindən artıq mərkəzləşməsi həm Gürcüstan daxilində siyasi həssaslıqlar yarada, həm də regionda digər böyük aktorlarla rəqabət kontekstində əlavə geosiyasi risklər formalaşdıra bilər.[12] Beləliklə, Anakliya layihəsi Azərbaycan üçün yalnız iqtisadi deyil, eyni zamanda incə geosiyasi hesablamalar tələb edən strateji alət kimi çıxış edir.

**Nəticə**

Layihənin yenidən gündəmə gətirilməsi təkcə iqtisadi inkişaf və logistika imkanları ilə bağlı deyil, beynəlxalq aktorlar arasında təsir mübarizəsinin bir hissəsidir. Xüsusilə ABŞ nümayəndələrinin layihəyə marağı Anakliyanın daha çox təhlükəsizlik və geostrateji balans aləti kimi dəyərləndirildiyini, limanın kim tərəfindən idarə olunmasının isə, regionda güc balansına birbaşa təsir etdiyini göstərir. Bu baxımdan Anakliya layihəsi Gürcüstan üçün sırf iqtisadi layihə deyil, onun xarici siyasət istiqamətini və beynəlxalq mövqeyini müəyyən edən strateji seçim xarakteri daşıyır.

Bununla belə, Orta Dəhliz kontekstində Anakliya hələ də potensial transformasiyaedici layihə olaraq qalır, Qara dənizə çıxışın gücləndirilməsi və regional logistika mərkəzi kimi mövqeyin möhkəmləndirilməsi baxımından vacib platforma hesab olunur.

---

https://www.radiotavisupleba.ge/a/%E1%83%90%E1%83%96%E1%83%94%E1%83%A0%E1%83%91%E1%83%90%E1%83%98%E1%83%AF%E1%83%90%E1%83%9C%E1%83%98-%E1%83%93%E1%83%90-%E1%83%A1%E1%83%90%E1%83%A5%E1%83%90%E1%83%A0%E1%83%97%E1%83%95%E1%83%94%E1%83%9A%E1%83%9D-%E1%83%A8%E1%83%A3%E1%83%90-%E1%83%93%E1%83%94%E1%83%A0%E1%83%94%E1%83%A4%E1%83%90%E1%83%9C%E1%83%A8%E1%83%98-%E1%83%91%E1%83%90%E1%83%A5%E1%83%9D-%E1%83%90%E1%83%9C%E1%83%90%E1%83%99%E1%83%9A%E1%83%98%E1%83%98%E1%83%A1-%E1%83%9E%E1%83%9D%E1%83%A0%E1%83%A2%E1%83%98%E1%83%97-%E1%83%98%E1%83%9C%E1%83%A2%E1%83%94%E1%83%A0%E1%83%94%E1%83%A1%E1%83%93%E1%83%94%E1%83%91%E1%83%90/32631457.html

[12] პაატა დავითაია - ანაკლიაში რატომ შეჩერდა ამერიკული პროექტი და სად არიან ჩინელები? - ალიევი რეგიონში ძლიერი მოთამაშეა, აქ დროის სატარებლად არ ჩამოვიდოდა, პორტი იქნებოდა ივანიშვილთან შეხვედრის ერთ-ერთი საკითხი 08.04.2026 https://www.interpressnews.ge/ka/article/866782-paata-davitaia-anakliashi-ratom-shecherda-amerikuli-proekti-da-sad-arian-chinelebi-alievi-regionshi-zlieri-motamashea-ak-drois-satareblad-ar-chamovidoda-porti-ikneboda-ivanishviltan-shexvedris-ert-erti-sakitxi/

Nəticə etibarilə, Anakliya limanı layihəsinin gələcəyi təkcə iqtisadi səmərəlilikdən deyil, həm də Gürcüstanın geosiyasi seçimlərindən, xarici aktorlarla balanslı münasibət qura bilməsindən və regionda formalaşan yeni güc arxitekturasına adaptasiya imkanlarından asılıdır. Layihənin uğurla reallaşması halında o, Cənubi Qafqazın tranzit xəritəsini dəyişdirə biləcək potensiala malikdir.

**Müəllif: Nəsibə Mirzəyeva, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) aparıcı məsləhətçisi**